# *AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİNİN*

# *2005-Cİ İL ÜÇÜN İLLİK HESABATI*

## SAĞLAMLIQ VƏ QAYĞI

### Səhiyyə maarifi işi

2005-ci ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gəncə, Lənkəran və Sabirabad Regional Mərkəzlərində sağlamlıq üzrə 21 nəfər yeni könüllü hazırlanmışdır. Fəaliyyət planına əsasən Milli Cəmiyyətin 66 nəfər sağlamlıq üzrə könüllüsü ölkənin 6 bölgəsində *reproduktiv sağlamlıq, ailə planlaşdırılması, qidalanma, şəxsi gigiyena, infeksion xəstəliklər* və *immunizasiyanın əhəmiyyətinə* dair 24,415 nəfər icma üzvü arasında səhiyyə maarifi işi aparmışlar. Könüllülər sağlamlıq üzrə seminarlar zamanı Milli Cəmiyyət tərəfindən buraxılmış «İcmada sağlamlıq treyninq modulu»ndan yardımçı bir vasitə kimi istifadə etmişlər.

İl ərzində «İcmada sağlamlıq proqramı» çərçivəsində ictimaiyyətin nəzərini sağlamlıqla bağlı problemlərə cəlb etmək məqsədilə Bakıda və digər regionlarda bir çox kampaniyalar həyata keçirilmişdir. Beləliklə, 24 mart «Ümumdünya Vərəmlə Mübarizə Günü»ndə Qızıl Aypara könüllüləri Bakı və Gəncə şəhərlərində 226 nəfər arasında vərəm və digər xəstəliklər haqda əyani vəsaitlər paylanmaqla, əhali bu xəstəliklər barədə məlumatlandırılmışdır. Həmçinin, həmin gün Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə birgə Bakıda yerləşən Ədliyyə Nazirliyi Məhkəmə Qərarları İcrası Baş İdarəsinin Tərbiyə Müəssisəsində tərbiyə olunan gənclərə də baş çəkmiş, onlara vərəmə dair informasiya materialları təqdim etmişdir.

7 Aprel «Ümumdünya Sağlamlıq Gününə» həsr olunmuş və «Heç bir ana, heç bir körpə diqqətsiz qalmasın!» şüarı ilə təşkil olunmuş kampaniya Qızıl Ayparanın Sabunçu rayon komitəsində 50 nəfər hamilə qadın və körpə uşaqlı analarla görüşdən ibarət olub. Həmin görüş zamanı qadınları narahat edən problemlər müzakirə olunmuş və onlara yeni doğulmuş körpələr üçün 50 ədəd gigiyenik dəstlər paylanılmışdır.

Kampaniyalardan biri də 31 may – «Ümumdünya Tütünlə Mübarizə Günü» olduğundan, Cəmiyyətimiz tərəfindən bu günə həsr olunmuş müxtəlif tədris ocaqlarında və internatlarda, yeniyetmə və gənclər arasında sorğular aparılmış, debatlar, təlimlər və seminarlar keçirilmişdir. Aparılan sorğuların təhlili göstərdi ki, iştirakçıların əksəriyyəti siqaret çəkmir ocaqlarında və internatlarda, yeniyetmə və gənclər arasında sorğular aparılmış, debatlar, təlimlər və və siqaretin çox zərərli, müxtəlif xəstəliklərin törədicisi olduğunu dərk edir. Həmin tədbirlərdə mütəxəssislər iştirak edərək, siqaret çəkmənin insan orqanizminə zərəri barədə çıxışlar etmişlər.

10 Oktyabr – «Ümumdünya Psixiki Sağlamlıq Günü»nə həsr olunmuş kampaniyanı Qızıl Ayparanın «Sağlamlıq və qayğı» şöbəsi Azərbaycan Psixoloqlar Assosasiyası ilə birgə təşkil etmişdir. «Yeniyetmələrin psixiki sağlamlığı» mövzusunda keçirilən konfransda Azərbaycan Psixoloqlar Assosasiyası, Azərbaycan Praktiki Psixoloqlar Assosasiyası, Ümumdünya Səhiyyə Təşkilatı, «El» İnkişaf Proqramları təşkilatı, Qadın Sağlamlıq Mərkəzi və s. kimi təşkilatların 50

nəfər nümayəndələri də iştirak etmişdir. 10 gün ərzində sağlamlıq işçiləri uşaq koloniyasında, müxtəlif orta və ali məktəblərdə 370 nəfər arasında psixiki sağlamlığa aid təlimlər keçirilmişdir.

Bütün kampaniyalar zamanı Milli Cəmiyyətinin il ərzində hazırlanmış 4,440 ədəd broşur, kitab, plakat, mayka, kepka, bayraq və s. əhali arasında paylanılmışdır.

Qeyd etmək lazımdır ki, 2005-ci ildə 50 ildən artıq bir müddətdə ömrünü dövlətinə və xalqına sərf etmiş, müharibə və sülh zamanı səhiyyə sahəsində xüsusi xidmətləri olan Azərbaycan Qızıl Aypara Cəmiyyətinin tibb işçiləri, ikinci dünya müharibəsinin veteranları Qızbəs Əsədova, Dürrə Məmmədova-Kosmodemyanskaya və 40 ildən artıq müddətdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Ağdam rayon komitəsində çalışan və «Tərəqqi» medalına layiq görülən Firuzə Əliyeva Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ən yüksək «Florens Naytinqeyl» medalına layiq görülmüşlər.

## TƏMƏNNASIZ KÖNÜLLÜ QAN DONORLUĞU

Layihə Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən 2003-cü ildən Norveç Qızıl Xaç Cəmiyyəti ilə ikitərəfli olaraq Beynəlxalq Qızıl Xaç/ Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (Beynəlxalq Federasiya) texniki dəstəyi ilə həyata keçirilir. 2005-ci ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Bakı və Gəncə Regional Mərkəzlərindən 12 nəfər yeni könüllü təmənnasız qan donorların cəlb olunması üzrə təlimatlandırılmışdır. İl ərzində ümumilikdə **52** nəfər könüllü tərəfindən Bakı və Gəncə şəhərlərində icmalarda və müxtəlif tədris ocaqlarında qan donorluğu vacibliyi haqqında keçirilmiş görüşlər və təlim-məşğələlər nəticəsində **18,164** nəfər maarifləndirilmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Bürosu tərəfindən təşkil olunmuş Səhiyyə Nazirliyi və Beynəlxalq ekspertlərin iştirakı ilə Azərbaycanda qan donorluğunun inkişafına dair təlimdə iştirak etmişdir.

Qızıl Aypara Cəmiyyəti Azərbaycan Hemofiliya və Azərbaycan Talassemiya Assosasiyaları ilə birgə Qan Bankının mütəxəssisləri vasitəsi ilə, müxtəlif tədris ocaqlarında - İqtisad Universiteti, Tibb Universiteti, Tibb Kolleci, Milli Elmlər Akademiyası və s. yerlərdə ümumi olaraq 10 qanvermə aksiyası təşkil etmişdir. Bu aksiyalarda könüllü təmənnasız olaraq **370** nəfər qan vermişdir.

2005-ci ilin 14 İyun «Ümumdünya Donor Günü»nə həsr edilmiş kampaniya keçirilmişdir. Həmin kampaniyada təntənəli şəkildə 50 nəfər mütəmadi olan donorlara təşəkkür bildirilmiş, hədiyyələr təqdim edilmişdir; Qızıl Aypara könüllüləri, Daun sindrom və hemofiliya xəstəliyindən əziyyət çəkən uşaqlar qan donorluğuna dair tamaşa göstərmiş və şerlərlə çıxış etmişlər.

Proqram çərçivəsində qan donorluğuna aid olan 14,182 ədəd broşür, buklet, plakat, brelok, divar saatı, qələm, şar, gödəkçə, çanta, qan donorlarının cəlb edilməsi üçün lövhə, qırmızı rəngli

mayka, kepka, fincan altı və uşaqlar üçün açıqça kimi müxtəlif əyani vəsaitlər hazırlanmış, Qızıl Ayparanın tədbirləri zamanı paylanılmışdır.

## HİV/AİDS

HIV/AIDS-in yayılmasını, habelə bu xəstəliyə tutulmuş insanlara qarşı diskriminasiyanı azaltmaq məqsədilə, Azərbaycan Qızıl Aypara Cəmiyyəti HIV/AIDS barədə məlumatsızlığı aradan qaldırmaq istiqamətində çalışır. Rəsmi statistik rəqəmlərə əsasən, Azərbaycanda HIV-ə yoluxmuşların sayı 867 nəfərdir. Yoxsulluqla birgə əhalinin HIV/AIDS barədə məlumatlılığının aşağı olması, kondomlardan ənənəvi olaraq az istifadə edilməsi, səhiyyə və tibbi qayğının aşağı səviyyədə olması, əhalinin miqrasiyası - bütün bunlar HIV/AIDS-ə yoluxma riskini artırır. Hesabat dövründə 18,889 məktəbli, tələbə, fahişə, dəri-zöhrəvi xəstəxanasının xəstələrinə Qızıl Ayparanın 594 həmyaşıd təlimatçıları tərəfindən təşkil edilmiş seminarlar keçilmişdir. Burada məqsəd gənclər arasında HIV/AIDS-in yayılması təhlükəsini azaltmaq olmuşdur. Təlimi məşğələlər zamanı aşağıdakı suallar qoyulmuşdur: «insanın immun sistemi necə işləyir?», «HIV nəyə təsir edir?», «xəstəlik necə keçir və xəstəliyin qarşısı necə alına bilər?». Gənclərin düzgün olmayan təsəvvürlərini azaltmaq məqsədilə HIV/AIDS-ə yoluxmuş insanlara qarşı diskriminasiya da müzakirə edilmişdir.

Layihə həmçinin, üzərində xəstəlik barədə məlumatlar olan 27,742 buklet, cib təqvimi, plakat, mayka, kepka, lent və çantalar buraxmağa kömək etmişdir. Həmin əşyalar həmyaşıddan-həmyaşıda təlim məşğələlər zamanı, habelə ictimai kampaniyalar zamanı yoldan keçən insanlara paylanılmışdır. İctimaiyyətin diqqətini artmaqda olan HIV/AIDS probleminə yönəltmək məqsədilə müntəzəm olaraq kampaniyalar keçirilmişdir. İri şəhərlərin küçələrində «gənclər HIV/AIDS qarşı» şüarı ilə yürüşlər keçirilməsi, yüzlərlə kondomların paylanılması, məktəblilərin iştirakı ilə tamaşalar hazırlanması və məktəblilər arasında rəsm yarışlarının keçirilməsi bu növ kampaniyalara daxildir.

Qızıl Aypara bu dəfə 1 dekabr, «Ümumdünya AIDS Günü»nü Bakı şəhərinin təhsil müəssisələrindən olan 50 tələbənin, AIDS ilə mübarizə üzrə Sosial Birliyin sədri, habelə HIV/AIDS yoluxmuş bir şəxsin iştirakı ilə müzakirələr təşkil etməklə qeyd etmişdi. Müzakirələr zamanı Qızıl Aypara işçiləri və könüllülər iştirakçılara izah etdilər ki, Hərəkatın Başlıca Prinsiplərinə əsasən insanlar cəmiyyətin bütün kateqoriyalarına qarşı insani münasibət bəsləməlidirlər. Müzakirələrlə yanaşı, Bakıda və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 5 regional mərkəzində digər tədbirlər də keçirilib. Bu tədbirlər sırasına orta məktəblərin şagirdləri arasında keçirilmiş HIV/AIDS-ə dair seminarlar, rəsm yarışları, viktorinalar, Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında Qızıl Ayparanın «Özünü qoru. AIDS -i dayandır!» video klipinin nümayişi ilə təşkil edilmiş təntənəli tədbir, Qızıl Aypara könüllülərinin təşkil etdiyi tamaşalar, Dövlət Pantomima Teatrının aktyorlarının ifa etdikləri pantomima tamaşası, rəsm yarışmasının qaliblərinə hədiyyələrin təqdim edilməsi, tanınmış Azərbaycan müğənnilərinin iştirakı ilə konsert daxil idi. Bu konsert proqramı

ilə Azərbaycanın tanınmış müğənniləri «Biz AIDS-ə yox deyirik!» deməklə AIDS qarşı etiraz səslərini ucaltmışlar. Ehtimal olunur ki, bu tədbirlər sayəsində 4000 nəfərdən artıq adam HIV/AIDS-in qarşısının alınması barədə məlumatlandırılmışdır.

## FÖVQƏLADƏ HALLAR

Milli Cəmiyyətin fəlakətə hazırlıq və cavab vermə imkanlarını gücləndirməkdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinə kömək etmək məqsədilə, habelə ən ümumi xətərlərlə ilgili risk və təhlükələr barədə əhalinin məlumatlılığını qaldırmaq məqsədilə layihə işlənilib hazırlanmışdır. İl ərzində Qızıl Aypara Cəmiyyətinin 7 regiondan Mobil könüllü dəstələrinin 308 üzvünə, regional mərkəzlərdəki başlıca işçi heyəti və könüllülərə fəlakətə cavab vermə işində Hərəkatın standartları, icmanın fəlakət barədə xəbərdarlığı üsullarının qaldırılması və fövqəladə vəziyyətdə ehtiyacların qiymətləndirilməsinə dair təlim vermişdir.

Qızıl Aypara anbar prosedurlarını təkmilləşdirmişdir: Qızıl Ayparanın anbar menecerləri və regional koordinatorları yardım ehtiyatı kartoçkaları üzrə yeni işlənilib hazırlanmış formalar, anbar sifariş vərəqəsi, aylıq və anbar ehtiyatı üzrə birləşdirilmiş hesabatlarla tanış olmuşlar. Qızıl Ayparanın yardım ehtiyatının idarə olunma sisteminin kompyuterləşdirilməsi davam etməkdədir.

Qızıl Aypara 1,050 ailə üçün gigiyenik dəst və mətbəx dəsti əldə etmişdir. Yanğın və daşqın nəticəsində evləri dağılmış 3 rayonun 6 kəndindən olan 98 ailə ( 506 nəfər ) Qızıl Ayparanın anbar ehtiyatından ədyallar, yataq torbaları, döşəklər, yataq ağları, paltarlar, rezin sapoqlar, ayaqqabılar, dəsmallar, gigiyenik və mətbəx dəstləri, portativ qaz plitələri, elektrik peçlər, elektrik çayniklər, bellər və dırmaqlar almışlar.

## TELEKOMMUNİKASİYA

VHF başlıca radio stansiyası Bakı regional mərkəzində quraşdırılmışdır və VHF Mobil radio stansiyaları Qızıl Ayparanın 4 maşınında quraşdırılmışdır, bununla da Qızıl Ayparanın avadanlıqla təchiz edilmiş maşınlarının sayı 22 olmuşdur. Milli Cəmiyyət 3 ədəd VHF Motorola GR-500 retranslyatorı, Bakı və Sabirabadda televiziya qüllələrində və Lənkəranda hökumət binasında quraşdırmışdır. Retranslyatorlar 50-75 km sahəni əhatə edir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti özünün telekommunikasiya prosedurlarını təkmilləşdirmişdir və 6 regional mərkəz və Naxçıvan Muxtar Respublikası Komitəsinin olan 315 işçi heyəti üzvünə və könüllülərə radio avadanlıqdan istifadə üzrə təlim vermişdir.

## İLK YARDIM

2,075 məktəbli və onların müəllimləri, Milli Cəmiyyətin könüllüləri və Azərbaycan Respublikasının cənubunda yerləşən çadır düşərgələrində yaşayan məcburi köçkünlərə həyatı xilas etmə üzrə əsas bacarıqlara dair təlim keçirilmişdir. SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyası, Ümumdünya Ərzaq Proqramı, neft şirkətləri, Price Water House Coopers və Baku INN təşkilatlarının işçilərinə 2005-ci ildə pullu ilk yardım kursları keçirilmişdir.

10 sentyabr 2005-ci ildə Azərbaycan Qızıl Aypara Cəmiyyəti Bakının Xətai rayonunda yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisəsində tədbir keçirməklə «Ümumdünaya İlk Yardım Günü»nü qeyd etmişdir. Beynəlxalq Federasiya, BQXK və «El» Proqram İnkişafı Mərkəzindən olan nümayəndələr tədbirdə iştirak etmişlər.

Tədbir yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisəsinin 80 nəfər məhkum və işçiləri arasında «Zavallı insanlar üçün İlk yardım» şüarı altında keçirildi. Tədbir zamanı Qızıl Aypara könüllüləri İlk yardım koordinatorunun köməyi ilə ilk yardım bacarıqlarını nümayiş etdirdilər. İştirakçılara həmçinin, ilk yardım və səhiyyə maarifinə dair broşuralar və ərzaq bağlamaları verildi. Həmin gündə cənub düşərgələri və yerli komitə inkişafı proqramının əhatə etdiyi 5 rayonun 12 icmasında ilk yardım bacarıqarının nümayiş etdirilməsi ilə yanaşı, yerli komitə və icmanın 405 könüllüsü və dram dərnəyinin şagirdləri arasında rəsm və ilk yardım yarışları keçirilmişdir.

## HUMANİTAR DƏYƏRLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyəti zorakılıq və diskriminasiyanın bütün formalarına qarşı çıxılmasına dair, habelə, icmalarda digər insanlar arasında dözümlülüyə kömək edilməsi və mədəni müxtəlifliyi hörmət göstərilməsinə dair öz könüllüləri üçün 10 təlim məşğələ keçirmişdir. Qızıl Ayparanın ilk təşkilatları, regional mərkəzlərindən olan 211 könüllü, məktəb yaşlı uşaqlar və tələbələrə, habelə ictimaiyyətə humanitar dəyərlərə dair təlim keçilmişdir. Onlar habelə dəyirmi masa arxasında keçən müzakirələrdə iştirak etmişlər. Humanitar dəyərlərə dair məşğələlər iştirakçılara özlərini stiqmaya məruz qalmış insanların – əlillər, vərəm, HIV/AIDS xəstəliyinə tutulmuş insanların yerinə qoymaqla stiqmanın nə qədər zərərli olduğunu anlamağa kömək etmişdir.

Qızıl Aypara Cəmiyyəti Katibliyinin 45 nəfər işçisi, habelə Bakıdan və 3 regional mərkəzdən olan könüllülər üçün Lənkəranda iki günlük piknik təşkil etmişdir. Piknik zamanı könüllülər dözümlülük, diskriminasiya və stiqmaya dair məlumat almışlar. Könüllülər HIV/AIDS, vərəmə tutulmuş insanlara qarşı, narkomanlara qarşı diskriminasiyaya dair prezentasiyalar etmiş və tamaşalar nümayiş etmişlər. Üzərində stiqma olan şəxsə dair münasibəti necə dəyişdirməyə dair fikir mübadiləsi etmişlər. HIV-ə yoluxmuş bir nəfər şəxs Qızıl Ayparanın təşkil etdiyi piknikdə

iştirak edərək öz həyatı barədə açıq söhbət etmişdir. Həmin şəxs gəncləri xəbərdar etmişdir ki, narkotiklərdən istifadə, habelə təhlükəli seks onları infeksiyaya tutulmaq riskinə məruz qoya bilər.

Qızıl Aypara Bakı, Sumqayıt və Gəncə şəhərlərindən olan 270 uşaq arasında «Biz eyni bir günəşin altında yaşayırıq» şüarı ilə rəsm yarışı və «İnsansevərlik .... deməkdir» mövzusuna dair inşa yazmaq müsabiqəsi keçirmişdir. 96 şagirdin çəkdiyi şəkillər Qızıl Aypara Katibliyində nümayiş etdirilmişdir. Bu yarışlarda qalib gəlmiş 30 nəfərə 1 Dekabr, «Ümumdünya AIDS-lə mübarizə Günü»nə həsr edilmiş tədbir zamanı hədiyyələr təqdim edilmişdir.

Qızıl Aypara Cəmiyyəti üzərində «Gəlin insan ləyaqətinə hörmət edək!», «Diskriminasiya qəbuledilməzdir!», «Gəlin, diskriminasiyanı dayandıraq!» sözləri yazılmış 18,209 ədəd plakat, broşür, çanta, divar saatı, mayka, qələm, karandaş, açıqca, zərf və bir sıra suvenirlər buraxmışdır.

Qızıl Aypara Cəmiyyətinin işinə dair məlumat yerli qəzetlər və televiziya vasitəsilə, habelə internet sayt kimi Beynəlxalq Federasiyanın informasiya kanalları vasitəsilə müntəzəm olaraq yayılır. 2005-ci ilin yanvarından etibarən, 8 yerli qəzetdə və Cəmiyyətin veb səhifəsində (www.redcrescent.az) 79 yeni məqalə çap edilmişdir. Könüllülərə dair profayllar Federasiyanın internet səhifələrində, habelə www.libraryoflife.org veb səhifəsində verilmişdir. «Lider» televiziya kanalında Cəmiyyətin humanitar fəaliyyətinə dair «Qızıl Aypara işığında» adlı 20 televiziya proqramı göstərilmişdir. Bakının mərkəzi küçələrindən birində bir ay müddətində ( gündə 100 dəfə olmaqla ) Imedia Advertising Company şirkətinin monitorunda pulsuz olaraq «Özünüzü AIDS-dən qoruyun» və «Qan ver və insan həyatını xilas et» adlı iki video klip nümayiş etdirilmişdir. Qızıl Aypara Cəmiyyəti öz fəaliyyətinə dair 20 dəqiqəlik sənədli film, habelə «Qızıl Xaç və Qızıl Aypara könüllüsü olmaq nə deməkdir?» adlı 13 dəqiqəlik film çəkdirmişdir.

## BEYNƏLXALQ HUMANİTAR HÜQUQ VƏ FUNDAMENTAL PRİNSİPLƏRİN YAYIMI

Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) dəstəyi ilə fəaliyyət göstərən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Beynəlxalq Humanitar Hüquq (BHH) və Fundamental Prinsiplərin yayımı sektoru və Qızıl Ayparanın 6 Regional Mərkəzindən olan 12 nəfər yayım üzrə təlimatlandırılmış könüllü 2005-ci ildə 79 seminar keçirməklə Respublika üzrə 9,792 nəfəri əhatə etmişdir. Seminarlar və Milli Cəmiyyətin digər tədbirləri zamanı Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının və onun tərkib hissəsi kimi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri haqqında yeni buraxılmış 6,000 ədəd buklet və 90 mayka paylanılmışdır.

Bakı şəhərin 3 rayonunu əhatə edən 2,098 nəfər əhali arasında keçirilmiş ictimai sorğuların nəticələri göstərmişdir ki, iştirakçıların əksəriyyəti – 1,249 nəfərin Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və Beynəlxalq Qırmızı Xaç Komitəsi haqqında kifayət qədər məlumatları vardır. İctimai sorğular zamanı əhali arasında

Qızıl Aypara və  Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən buraxılmış informasiya materialları da paylanılmışdır.

İl ərzində Qızıl Aypara emblemindən düzgün istifadə edilməməsi hallarını aşkar etmək məqsədilə, Milli Cəmiyyətin könüllüləri tərəfindən bir neçə tibbi müəssisəyə baş çəkilmişdir. Qeyd etmək  lazımdır ki, həmin Emblem kampaniyalar nəticəsində bir emblemdən sui-istifadə halının qarşısı alınmışdır.

## BEYNƏLXALQ ƏLAQƏLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyəti 2005-ci ildə də  beynəlxalq əlaqələri inkişaf etdirməklə bir çox nailiyyətlər əldə etmişdir. Məhz ötən il ərzində Cəmiyyətin əməkdaşları çox saylı beynəlxalq görüşlərdə, seminar və konfranslarda iştirak edərək Cəmiyyəti yüksək səviyyədə  təmsil etmişlər. Belə ki:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər Komitəsinin sədri Şaban Şayev və sədr  müavini Bayram Vəliyev Avropa Milli Cəmiyyətlərinin Gənclər strukturlarının koordinasiya görüşündə iştirak etmək üçün 2005-ci il may ayının 10-da Vyana şəhərinə səfər etmişlər.

May ayında Cəmiyyətin Axtarış xidmətinin rəhbəri Afət Mirzəzadə və Fövqəladə Hallara Hazırlıq İdarəsinin rəisi  Elşən Səlimzadə MDB və Baltikyani ölkələrin fövqəladə hallarda axtarış xidmətinin rolu adı ilə MDB və Baltikyani ölkələrin axtarış xidməti rəhbərlərinin forumunda iştirak etmək üçün Moskvaya səfər etmişlər.

May ayının 13-də isə Sağlamlıq və Qayğı Şöbəsinin müdiri Mətanət Qaraxanova Ümumdünya Səhiyyə Təşkilatının məktəblərdə Sağlam həyat tərzi adı ilə milli koordinatorların XII Avropa şəbəkəsinin görüşündə iştirak etmək üçün Edinburqa, Şotlandiyaya səfər etmişdir.

May ayının 23-dən 27-dək İspaniya Qızıl Xaç Cəmiyyətinin təşkil etdiyi CODAN NGT HF radio avadanlığın istifadə qaydaları haqqında Beynəlxalq telekommunikasiya treyninqdə iştirak etmək üçün Cəmiyyətin Telekommunikasiya Sektorunun rəhbəri Əşrəf Həsənov may ayında Madrid şəhərinə, İspaniyaya səfər etmişdir.

Avqust ayında Beynəlxalq Humanitar Hüquqla bağlı MDB ölkələrinin iştirak etdiyi yay düşərgəsində iştirak etmək üçün Cəmiyyətin Hüqüqşünası Ceyhun İsmayılov Moskvaya səfər etmişdir.

Sentyabr ayında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər şöbəsinin müdiri Xalidə İsgəndərova, AİDS üzrə koordinator Şaban Şayev və Sağlamlıq və Qayğı Şöbəsinin müdiri Mətanət Qaraxanova Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının AİDS-ə və

vərəmə qarşı Avropa Regional Ş əbəkəsinin IX görüşündə iştirak etmək üçün Kiyev şəhərinə səfər etmişlər.

Sentyabr ayının 21-də Cəmiyyətin İcraçı Katibi Elxan Rəhimov Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətiləri Federasiyasının Genevrə şəhərində keçirilən seminarında iştirak etmək üçün Cenevrəyə, oradan isə Tiflis şəhərinə rəsmi səfər etmişdir.

Noyabr ayının 11-dən 18-dək Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Baş assambleyasının iclasında iştirak etmək üçün  İcraçı Katib Elxan Rəhimov, İcraçı Katibin müavini  Bəylər Talıbov və Gənclər Komitəsinin sədri Ş aban Ş ayev Seula səfər etmişlər. Baş Assambleya zamanı Cəmiyyət Federasiyanın Təşkilati İnkişaf Komitəsinin üzvü seçilmişdir.

Dekabr ayının 7-də isə  İcraçı Katib Elxan Rəhimov Budapeştə sonra isə Tiflis şəhərində rəsmi səfərdə olmuşdur.

Dekabr ayının 12-də isə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanov və İcraçı Katibin müavini  Bəylər Talıbov yüksək səviyyəli siyasət üzrə seminarda iştirak etmək üçün Roma şəhərinə rəsmi səfər etmişlər. Səfərin mahiyyəti Milli Cəmiyyətlərdə ziyanın azaldılması yönümündə fəaliyyətin təşkil olunmasıdır.

Ötən il Ümumdünya Səhiyyə Təşkilatının Ummunlaşdırılma proqramının Koordinatoru Serqey Mukamolov may ayının 11-də AzQAC-ə rəsmi səfər edib.

2005-ci il may ayının 12-də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 85 illiyinə həsr olunmuş tədbirdə iştirak üçün Rusiya Qızıl Xaç Cəmiyyətinin prezidenti Tatyana Nikolayenko və İcraçı Direktor Erik Prazdnikov, Tacikistan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Cura İnomzoda, Gürcüstan Qızıl Xaç Cəmiyyətinin Prezidenti Nana Keynişvili Bakıya səfər etmişlər.

Noyabr ayında GOPA- Vərəm əleyhinə təşkilatın təhsil üzrə eksperti İrina Zatuşevskaya Azərbaycan Qızıl Aypara Cəmiyyətində rəsmi görüşdə olub.

Dekabrın 1-də Beynəlxalq Federasiyanın Türkiyə Regional Nümayəndəliyinin başçısı Stefan Seebaher  Azərbaycan Qızıl Aypara Cəmiyyəti Katibliyində 5 günlük rəsmi səfərdə olmuşdur.

## TƏŞ KİLATİ İNKİŞ AF

2005-ci ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaradılmasının 85 illiyi qeyd olunmuşdur. Milli Cəmiyyətin 85 illiyi münasibətilə təntənəli mərasim martın 12-də Azərbaycan Dövlət Musiqili Komediya Teatrında keçirilmişdir. Cəmiyyətin prezidenti Novruz Aslanov öz çıxışında 1920-ci ildə regionda, ilk dəfə olaraq, məhz Azərbaycanda yaradılmış Qızıl Aypara Cəmiyyətinin keçdiyi yola nəzər salmışdır. Mərasimdə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və BQXK prezidentlərinin təbrik məktubları oxunmuş, Federasiyanın Türkiyədəki regional nümayəndəsi, Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin rəhbəri, Rusiya və Gürcüstan Qızıl Xaç və Tacikistan Qızıl Aypara Cəmiyyətlərinin prezidentləri azərbaycanlı həmkarlarını təbrik etmişlər. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə mərasimdə çıxış edərək, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin özünün xeyirxah missiyasını bundan sonra da layiqincə davam etdirəcəyinə əminliyini bildirmişdir. Rəyasət heyətinin qərarı ilə Cəmiyyətin fəxri üzvü, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəmiyyətin ilk «Qızıl Aypara» medalına layiq görülmüşdür. Mərasimdə həmçinin, Cəmiyyətin bir sıra fəal üzvünə fəxri fərmanlar və mükafatlar təqdim olunmuşdur. Qeyd etmək lazımdır ki, Qızıl Ayparanın 85 illik yubileyi ilə əlaqədar Respublika Prezidenti cənab İlham Əliyev tərəfindən Cəmiyyətin fəaliyyətində xüsusi xidmətləri olmuş 7 ayparaçını - Aslanov Novruzəli Davud oğlu, Budaqov Nadir Məhərrəm oğlu, Fomina Klavdiya İvanovna, Həsənova Zöhrə Firuddin qızı, Əliyeva Firuzə Hilal qızı, Əliyev Məmmədiyyə Hidayət oğlu və Mustafayev İxtiyar Allahyar oğlu «Tərəqqi» medalı ilə təltif edilmişdir.

Bu il noyabr ayının 10-dan 18-dək Koreya Respublikasının paytaxtı Seulda keçirilən Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Baş Məclisində Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Federasiyasının İdarəetmə Ş urasının Təşkilatı İnkişaf Komissiyasına üzv seçilmişdir. Qeyd etmək lazımdır ki, Milli Cəmiyyətin bu Komissiyaya üzv seçilməsinə, onun son illər təşkilati inkişaf sahəsində apardığı məqsədyönlü işlər və əldə etdiyi bir çox nailiyyətlər səbəb olmuşdur.

2005-ci ildə Qızıl Aypara Cəmiyyəti üzvlərinin sayı 213.176 nəfər təşkil etmiş, ilk təşkilatların sayı isə 4822-yə çatmışdır.

Azərbaycan Qızıl Aypara Cəmiyyətin Katibliyinin 25 nəfər işçisinə Federasiyanın başlıca planlaşdırma vasitəsi olan Layihə Planlaşdırma Layihəsi üzrə təlim keçilmişdir. Federasiyanın Ankara şəhərindəki regional nümayəndəliyindən olan təşkilati inkişaf üzrə menecer həmin treyninqi aparmışdır. Qızıl Aypara Cəmiyyətinin yerli komitələrin 32 sədri, habelə Gəncə və Lənkəran regional mərkəzlərinin işçiləri üçün Qızıl Aypara Cəmiyyətinin nizamnaməsinə dair 2 seminar keçirmişdir. Təlim məşğələlər nizamnamə, rəhbərliketmə və idarəetmə kimi müxtəlif mandatlar, yerli komitələr və üzvlərlə işə dair Qızıl Aypara işçilərinin anlayışının artmasına kömək edir.

Bundan əlavə 2 regional mərkəz və 5 yerli komitədən olan 67 işçiyə yaxşı layihə təklifini necə yazmağa dair təlim keçirilmişdir.

Qızıl Aypara Cəmiyyəti 2005-2007-ci illər üzrə özünün Strateji Planının Azərbaycan dilində 150 və ingilis dilindəisə 50 nüsxəsini buraxmışdır. Beynəlxalq Federasiyanın 2010-cu il Strategiyasına uyğun gələn bu Strateji Plan prioritet verilmiş sahələri müəyyən edir.

## YERLİ KOMİTƏLƏRİN İNKİŞ AFI

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin hədəfə götürülmüş yerli komitələri icma iştiraklı inkişaf yanaşması üzrə işləməkdə davam edirlər. Bu yerli ehtiyacları yaxşı başa düşməyə, gündəlik sosial və sağlamlıq problemlərinin həllini tapmaqda icmalara kömək etmək məqsədilə müvafiq proqramlar işləyib hazırlamağa, icmaların fəaliyyətinin davamlılığını gücləndirməkdə yerli resursları maksimum şəkildə səfərbər etməyə kömək edir. Yerli komitələrin inkişafı layihəsi 2003-cü ilin iyununda başlanmışdı və layihə əvvəldən 4 yerli komitə üzərində cəmlənmişdi. Bu il Sabirabad, Mingəçevir, Sumqayıt, İsmayıllı və Zaqatala komitələri nəzər diqqətə alınmışdı. Həmin yerli komitələr İcma İştiraklı İnkişaf metodu vasitəsilə özlərinin proses dəyişikliyinə sadiq qaldıqlarını nümayiş etdirmişlər. Bununla belə layihə siklinin bütün mərhələlərində, xüsusilə də icma səviyyəsində daha yaxşı və daha səmərəli icranı təmin etmək məqsədilə təkmilləşdirməyə ehtiyac vardır. Qoyulmuş vəzifəyə çatmağa kömək etmək məqsədilə 2006-cı ildə Bakı və Ankaradakı Federasiya nümayəndəlikləri texniki dəstək göstərəcəklər, habelə İcma İştiraklı İnkişaf sahəsində artıq təcrübəsi olan Milli Cəmiyyətlərin işçilərini bir araya gətirəcəklər.

2005-ci ilin yanvarından etibarən orta məktəblərin 1,415 şagirdi, icma üzvləri, habelə Qızıl Aypara könüllüləri Beynəlxalq Qızıl Xaç / Qızıl Aypara Hərəkatı Hərəkatın tarixi, mandatı və Fundamental Prinsipləri barədə bilgi almışlar. 49-a yaxın Qızıl Aypara səhiyyə maarifçiləri ailə planlaşdırması, reproduktiv sağlamlıq, HIV/AIDS, vərəm, immunizasiyanın əhəmiyyəti, döş xərçəngi, ictimai və şəxsi gigiyenaya dair 13,660 nəfər şagird arasında qrup və fərdi məşğələlər keçirmişlər. Qızıl Ayparanın 34 nəfər ilk yardım təlimatçısı hədəfə götürülmüş icmalarda daha 1,840 adama ilk yardım vərdişləri üzrə təlim keçmişlər. Hesabat dövrü ərzində Qızıl Aypara yerli komitə işçiləri və icma üzvləri üçün icmada fəlakət barədə məlumatlılığın qaldırılması, layihə planlaşdırılması, idarəetmə və fandreyzinq üzrə təlimlərə başlamışdır. Əvvəllər təlim almış Mingəçevir və Sabirabad regional mərkəzlərinin işçiləri və könüllüləri öz növbələrində 224 nəfər Qızıl Aypara könüllüləri və icma üzvləri üçün təlim məşğələlər keçirmişlər.

Qızıl Aypara Cəmiyyətinin Mingəçevir, İsmayıllı və Sabirabad yerli komitələrinin gənclər koordinatorları Ümid, Karhana və Narimanabaddakı 36 icma üzvünə layihə plandlaşdırılmasına dair təlim vermişlər. Seminarlardan birinin ardınca İsmayıllı komitəsi tərəfindən könüllülər üçün yay düşərgəsinin keçirilməsini təklif edən iki layihə işləyib hazırlanmışdır. Layihələrin

maliyyələşdirilməsi işinə baxılmaq üçün həmin layihələr Sülh Korpusu Əməkdaşlıq proqramına təqdim edilmişi və layihələr üçün müvafiq olaraq 43,575 İsveçrə frankı və 21,165 İsveçrə frankı alınmışdır. Narimanabaddakı 27 nəfər adama onların rəhbərliketmə bacarıqlarının inkişaf etdirilməsinə kömək etmək məqsədilə təlim keçirilmişdir.

Sumqayıt, İsmayıllı, Mingəçevir və Zaqatala yerli komitələrinin 20 işçisi və könüllüsü Qızıl Aypara tərəfindən təşkil edilmiş sosial qayğıya dair 2 günlük treyninqdə iştirak etmişlər. Treyninq zamanı iştirakçılar «imkanları məhdud olan uşaqlara və yetim uşaqlara sosial dəstək göstərilməsi» barədə, Azərbaycanda və xaricdə bu kateqoriyadan olan uşaqlar barədə məlumatlandırılmışdır. Treyninq həmçinin, iştirakçılara əlilliyi stereotipləri (qüsur, sosial, psixoloji və fiziki durumun aşağı olması) dəyişmək metodu kimi anlamağa, habelə, məhdud imkanları olan uşaqlara və yetim uşaqlara münasibətdə müsbət münasibət qurmağa imkan vermişdir. Treyninqin digər mühüm hissəsi uşaq qrupları içərisində əlverişli mühit, qarşılıqlı dəstək qrupları yaratmaqdan, ailəni bütövlükdə inteqrasiya etməkdən, məhdud imkanlı uşaqların və yetim uşaqların adaptasiyasında ailənin iştirakını yaratmaqdan ibarət olmuşdur. Qızıl Aypara könüllüləri Azərbaycanda sosial qayğı işlərində bir yerdə çalışdıqları Norveç könüllülərinin işini qeyd etmişlər.

QAC Sumqayıt, Sabirabad və İsmayıllı komitə könüllüləri 51 əlil uşağa və 82 tənha qocaya baş çəkmişlər. Qızıl Aypara könüllüləri tənha qocalara onların evlərini təmizləməkdə, bazarlıq etməkdə, odun doğramaqda və yemək bişirməkdə köməklik etmişlər. Könüllülər habelə, uşaqlara ev tapşırıqlarını etməkdə kömək etmiş, uşaqlara onlara gərək olan məktəb ləvazimatları paylamışlar. İsmayıllı komitəsindən olan könüllülər fiziki cəhətdən əlil 2 uşağı bu cür uşaqlara psixoloji reabilitasiya göstərən «Sağlam Uşaq Dünyası» mərkəzinə aparmışlar. «Beynəlxalq Əlillər Günün»-də Sumqayıt komitəsinin könüllüləri 30 əlil uşağa hədiyyələr paylamışlar. Sabirabad komitəsinin könüllüləri 3 icmadan olan 131 qocaya yataq dəstləri və məişət əşyaları bağışlamışlar.

Hədəfə götürülmüş icmalardakı uşaqların psixoloji vəziyyətini yaxşılaşdırmaq üçün bir sıra məktəbdən xaric fəaliyyətlər təşkil edilmişdir. 1,799 uşaq folklor dərnəyinə gedir, futbol, voleybol, basketbol və şahmat sektoruna, rəsm qrupu, habelə, dram dərnəyinə üzv yazılıblar. Hədəfə götürülmüş icmalardakı uşaqlar arasında bir sıra treyninq məşğələləri və idman yarışları təşkil edilmişdir. Cənub düşərgələrində və Sabirabad rayonunun 5 icmasındakı dram dərnəyinin 42 şagirdi kukla düzəltməyi öyrədən treyninqdə iştirak etmişlər. Treyninq başa çatdıqdan sonra şagirdlər kukla tamaşaları göstərmişlər. Bu tamaşalar şəxsi gigiyena və infeksion xəstəliklərin qarşısının alınması kimi səhiyyə ilə ilgili məsələlər üzərində qurulmuşdu. Cənub düşərgələrindən, habelə Sabirabad, İsmayıllı rayonları və Sumqayıt şəhərinin 6 icmasından olan 145 uşaq rəsm yarışmasında, futbol, voleybol və dama turnirində iştirak etmişlər. Sumqayıt yerli komitəsinə əməkdaşlıq etmək xahişi ilə müraciət etmiş Beynəlxalq Yardım və İnkişaf təşkilatı ilə qurulmuş əməkdaşlıq çərçivəsində 10 əlil uşağa məktəb çantaları verilmişdir.

Qızıl Aypara Cəmiyyəti cənub düşərgələrində, habelə 5 rayonun icmalarındakı ailələrdən olan 100 uşaq üçün Zaqulbadakı uşaq sanatoriyasında bir aylıq yay düşərgəsi təşkil etmişdir. Düşərgənin gündəliyinə Hərəkatın Fundamental Prinsipləri, səhiyyə maarifi, ilk yardım və fəlakətə hazırlığın əsaslarına dair treyninq məşğələləri daxil olub.

Yuxarıda qeyd olunan yerli komitələr peşə üzrə treyninqlər təşkil etmişlər. Burada məqsəd insanların yeni bacarıqlar öyrənmələrinə və onların daha yaxşı iş imkanları əldə etmələrinə kömək etmək olub. 151 nəfər dərzi, kişi və qadın bərbəri, kulinariya üzrə kurslara getmişdir. Qızıl Ayparanın 17 könüllüsü tərəfindən aparılan həmin kursları bu günə kimi 182 nəfər bitirmişdir. Peşə təlimi kurslarını bitirmiş 5 nəfər gənc artıq Sabirbadda və Əhmədabad icmasında, habelə Fizuli rayonunda özlərinə dərzi, kişi bərbəri ixtisasları üzrə iş tapmışlar.

Qızıl Aypara Cəmiyyəti qadınların rolunun güclənməsinə xüsusi diqqət yetirilməsini davam etdirmişdir. Qadınların öz hüquqlarını kollektiv şəkildə müdafiə etmələri üçün onlar icmalarda birləşməyə rəğbətlənidirilümişdir. Hesabat dövründə Sabirabad rayonunun Nərimanabad və Muğangəncəli kəndlərində, habelə, Zaqatala rayonunun Car kəndində 3 yeni qadın komitəsi yaranmışdır. Bununla da hədəfə götürülmüş 5 rayonda – Sabirabad, Mingəçevir, Sumqayıt, İsmayıllı və Zaqatalada qadın komitələrinin ümumi sayı 12-yə çatmışdır. Bu komitələrin işinə 133 qadın cəlb olunmuşdur. Qadınların sosial problemlərini və cins məsələlərini müzakirə etmək üçün qadın komitələri icmadakı iş qruplarının rəhbərləri ilə müntəzəm görüşüb söhbət edirlər. Onlar həmçinin, öz icmalarındakı ən zavallı insanların qayğısına qalır və icma daxilində müxtəlif növ işlər görürlər. Tənha qocalara baş çəkilməsi, onlara ev işlərini görməkdə kömək edilməsi, küüçələrin təmizlənməsi, ağac əkilməsi bu kimi işlər sırasındadır. Səhiyyə maarifçiləri ilə birgə icmalar ailə planlaşdırılması, qan donorluğunun vacibliyi, sanitariya-gigiyena qaydaları kimi səhiyyə ilə bağlı məsələlərə dair 235 qadın üçün 8 seminar təşkil etmişlər. Habelə, icmalardakı qadınların sosial problemlərinə dair birgə məşğələlər keçirməyi davam etdirmişlər. Hesabat dövrü ərzində qadın komitələri səhiyyə maarifçilərinin köməyi ilə həmçinin, ehtiyacların qiymətləndirilməsi işini həyata keçirmiş və buna əsaslanaraq cənub düşərgələri və icmalardakı 19 hamilə qadına uşaq bələk əşyaları paylamışlar.

Layihələrin icrası zamanı yerli icra hakimiyyəti və icmalar icma layihələrinə müxtəlif səviyyədə köməklik göstərmişlər. İsmayıllı və Zaqatala yerli icra hakimiyyəti texniki dəstək göstərmişlər: icmalardan olan 35 uşaq üçün 1 Dekabr «Ümumdünya AIDS-lə mübarizə Günü» və Yeni İlə həsr edilmiş tədbirlər üçün bina, mini avtobus, musiqi alətlərinin icarəyə götürülməsi, Mingəçevirdə yerli icmalar «Ümumdünya İlk Yardım Günü»nə həsr edilmiş tədbirin keçirilməsi xərclərinin 80 %-ni öz üzərinə götürmüşlər. Sumqayıt yerli komitəsi zavallı uşaqlar üçün 2006-cı ildə keçiriləcək yay düşərgəsi layihəsini hazırlamış və layihəni baxılmaq üçün UMCOR və World Vision təşkilatlarına təqdim etmişdir.

Zaqatala komitəsi Car kəndinin yerli bələdiyyəsi ilə əməkdaşlıq edir. Yerli bələdiyyə komitə tərəfindən təşkil olunan müxtəlif tədbirlərdə iştirak edir, bu tədbirlər üçün yer, lazımi nəqliyyat vasitələrini təşkil etməkdə, habelə, digər inzibatı məsələlərdə komitəyə kömək edir. Mingəçevir komitəsi icma inkişafı işi üçün yerli icra hakimiyyətindən daha çox dəstək alınması üzrə səylərini davam etdirmişdir. İcra hakimiyyəti İsmayıllı yerli komitəsinə ofis üçün yer ayırmışdır.

## GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR HƏRƏKATININ İNKİŞAFI

Qızıl Ayparanın başlıca daimi fəaliyyət sahələrindən biri də gənc könüllülər işinin inkişaf etdirilməsi olmuşdur. Qızıl Ayparanın öz qarşısına qoyduğu vəzifələrə nail olmasına, habelə, ən zavallı insanlara xidmətlər göstərməsinə kömək etmək üçün könüllülər müxtəlif fəaliyyətlərə cəlb olunublar. Könüllülər yetim uşaqlara və əlil uşaqlara psixoloji dəstək göstərilməsi işinə fəal şəkildə qoşulmuşlar. Bu əlil uşaqlara özlərinə müstəqil şəkildə qulluq göstərmələrinə imkan verir. Ev tapşırıqlarını yerinə yetirməkdə uşaqlara köməklik göstərmək, özlərinə müstəqil şəkildə necə qulluq etməyi öyrətmək, müxtəlif oyunlar oynamaq, şəkil çəkmək və kitab mütaliə etmək məqsədilə 2005-ci ilin yanvar ayından bəri 52 könüllü Bakıdakı 550 yetim uşağa və əlil uşağa baş çəkmişdir. 5 könüllü Gəncədəki 15 tənha qocaya baş çəkmiş və onlara ev işlərində köməklik etmişdir. Könüllülər Şağan, Bilgəh, Maştağa və Sumqayıtdakı internatda yaşayan 455 yetim və əlil uşaq üçün konsert təşkil etmişlər. Qızıl Aypara həmçinin, uşaqlara paltar da paylamışdır. Şağan qəsəbəsində yerləşən yetimlər evinin 153 əlil uşağı yay istirahət düşərgəsinə aparılmışdır. Norveç Qızıl Xaçının 7 könüllüsü və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 11 könüllüsü yay istirahət düşərgəsində dincələn uşaqları gəzintilərə, dənizdə çimərliyə aparmış, onlar üçün müxtəlif oyunlar, idman yarışları, şəkil çəkmək, tikiş tikmək və musiqi üzrə proqramlar təşkil etmişlər. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 5 könüllüsü öz növbəsində əlil uşaqlara necə baxmaq üzrə təcrübə mübadiləsi etmək üçün Norveçdəki həmkarlarının yanına getmişdir.

Milli Cəmiyyət hər zaman öz könüllülərini həvəsləndirmək üçün müxtəlif metodlardan istifadə etməkdə könüllülərə öz bacarıqlarını artırmaq məqsədilə müxtəlif təlim imkanları verir. Qızıl Aypara könüllülərin qeydiyyatı işini davam etdirmişdir. Bu Qızıl Ayparaya öz könüllülərinin sayı və profilinin aydın mənzərəsini yaratmağa, habelə, könüllülərə öz bacarıqları və peşəkarlıqlarını artırmaq üçün onlara hansı sahələrdə köməkliyin gərəkli olduğunu öyrənməyə imkan verirmişdir. Bu günə kimi 995 könüllü qeydiyyata alınmışdır ki, (yəni, könüllülərin ümumi sayının 6.2 %) bu da ölkə üzrə olan könüllülərin ümumi sayını 15, 899 nəfərə çatdırmışdır. 237 könüllü Qızıl Ayparanın tarixi, mandatı, prinsipləri və prioritet iş sahələrini öyrənmək üçün kursda iştirak etmişdir. Daha 79 könüllü təlimatçı kimi, 323 nəfər şagird, tələbə və müəllim isə liderlik üzrə təlimat zamanı dinləyici kimi təlim almışdır.

Lənkəran, Naxçıvan və Sabirabadda Qızıl Aypara öz könüllülərinə görüşmək, fikir və təcrübə mübadiləsi etmələrinə imkan vermək məqsədilə onlar üçün gənclər klubları yaratmışdır. Sumqayıt, Mingəçevir və Gəncədə gənclər klubu 2004-ci ildə yaradılmışdır.

Qızıl Aypara işi barədə ictimaiyyətin məlumatlılığını artırmaq məqsədilə 8,000 nüsxə aylıq bülleten çap edilmiş və Qızıl Ayparanın yerli komitələrinə paylanılmışdır. Bundan əlavə, 1,584 döş nişanı, üzərində Qızıl Aypara emblemi olan 568 mayka və gödəkçə hazırlanmışdır.

Gənclər və könüllülər şurasının 3 milli və 11 regional görüşü keçirilmişdir. Könüllülər öz işlərinə dair hesabat vermiş və fikir mübadəlisi etmişlər.

5 Dekabr, «Beynəlxalq Könüllülər Günü» gənclər konfransının keçirilməsi ilə bayram edilmişdir. Könüllülər səhiyyə maarifçiliyi, HIV/AIDS və sosial iş kimi Qızıl Aypara fəaliyyətlərinə dair prezentasiyalar etmişlər. Tədbirin sonunda 50-dən artıq ən fəal könüllüyə diplomlar və xatirə hədiyyələri verilmişdir.

## Gənclər Komitəsi

Qızıl Aypara Gənclər Komitəsi tərəfindən sosial qayğı göstərilməsinə dair 2 layihəyə başlanılmışdır: «ÜMİD uşaq evindəki yetim uşaqlar arasında ekologiya, coğrafiya və gigiyenik normalara dair biliklərin inkişaf etdirilməsi» və «SOS Uşaq Kəndlərində yaşayan uşaqlarda idmanın inkişaf etdirilməsi». Nəticədə 25 kimsəsiz uşaq ekologiya, coğrafiya və gigiyenaya dair öz biliklərini artırmış və 30 gənc özünü müdafiə metodlarını öyrənmişdir. 2005-ci ilin ərzində Qızıl Ayparanın Gənclər Komitəsi tərəfindən bir sıra tədbirlər təşkil olunmuşdur. Belə ki, mart ayında Cəmiyyətin Gənclər Komitəsinin işçiləri xalqımızın ən sevimli bayramlarından olan Novruz bayramı münasibətilə Bakı şəhəri Saray qəsəbəsi 7 saylı internatda məskunlaşmış fiziki və əqli cəhətdən qüsurlu olan 160 uşağa baş çəkmişlər. Tədbirdə internatda məskunlaşmış zavallı uşaqlar üçün bayram süfrəsi açılmış, uşaqların əhval-ruhiyyələrini yüksəltmək və əyləndirmək üçün Qızıl Ayparanın Milli Konservatoriyadakı İlk Təşkilatının dəvəti ilə gəlmiş könüllü musiqiçiləri tərəfindən böyük konsert proqramı hazırlanmışdır. Gənclər Komitəsinin digər bir tədbiri 1 iyun, Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuşdur. Bununla əlaqədar Bakı şəhəri Yasamal rayonunda yerləşən 318 saylı uşaq bağçasında geniş və yüksək səviyyədə tədbir təşkil olunmuşdur. Uşaqlar tədbir iştirakçıları üçün Qızıl Ayparanın himni ifa edib, könüllülər isə şer, mahnı töhfələri və səhnəcikləri ilə çıxış etdilər. 5 dekabr, Beynəlxalq Könüllülər Günü münasibətilə Gənclər Komitəsi tərəfindən Cəmiyyətin könüllülərdən ibarət futbol komandası və Bakı şəhəri Xətai rayonunda yerləşən yeniyetmələr üçün tərbiyə müəssisəsində tərbiyə olunan gənclər arasında mini-futbol turniri təşkil olunmuşdur. Keçirilmiş hər tədbirin sonunda iştirakçılara hədiyyə verilmişdir.

## TƏHLÜKƏSİZ OYUN MEYDANÇALARI LAYİHƏSİ

Keçmiş münaqişə zonalarında yerli əhali çox vaxt əsas hərbi əməliyyatların sona çatmasından uzun müddət sonra mina və müharibənin partlayıcı qalıqları (MPQ) nəticəsində ölüm və ya yaralanma təhlükəsi ilə üzləşirlər. Cəlbedici metal əşyalara etinasızlıq və təbii maraq uşaq və gəncləri təhlükə qarşısında qoyur. Hətta onların yaşadığı kəndin yaxınlığındakı meşədə atılıb qalmış müvafiq predmetlərin üzərinə çəkiclə zərbə vurularsa və ya onlar oda atılarsa partlayacağı haqda biliklərin olması da uşaqları məhz bu cür hərəkət etməkdən cəkindirmir.

2005-ci ildən başlayaraq, yuxarıda göstərilənlərə laqeyd olmayan BQX/QA Hərəkatının ayrılmaz bir hissəsi olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti BQXK-nın dəstəyi ilə mina təhlükəsi risklərinin azaldılması üçün «Təhlükəsiz Oyun Meydançaları» (TOM) layihəsini həyata keçirilməsinə başlamışdır. Bu layihənin əsas məqsədi əvvəllər müharibə zonası olmuş indiki yaşayış əraziləri sayılan yerlərdə baş verən hadisələri qiymətləndirərək orada insanlara bu təhlükələrdən yaxa qurtarmaq üçün alternativ çıxış yolları tapmağa köməklik göstərməkdən ibarətdir.

Statistika göstəricilərinə görə bu hadisələrdən ən çox əziyyət çəkənlər uşaq və gənclərdir. Belə təhlükəli ərazilərdə yaşayan soydaşlarımızla bu risklərin azaldılması yönümündə işlər aparılması zərurəti yaranmışdır.

Azərbaycanda belə bir fərqli, konkret layihənin həyata keçirilməsi BQXK-nin texniki, Norveç Qızıl Xaç Cəmiyyətinin maliyyə dəstəyi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin «Gənclər Komitəsi» tərəfindən həyata keçirilmişdir. Dünya təcrübəsində ilk dəfə olaraq bu layihə yerli səviyyədə, yəni Milli Cəmiyyət tərəfindən həyata keçirilmişdir. Qızıl Ayparanın «Gənclər Komitəsi»nin həyata keçirdiyi «TOM» layihəsi keçmiş münaqişə zolağına yaxın olan icmalarda uşaqların, gənclərin mina təhlükəsindən qismən də olsa yayınmasında köməklik göstərəcəkdir. Layihənin məqsədi təkcə ondan ibarət deyildir ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti seçilmiş olan bu icmalarda bu avadanlıqların tikilməsini təşkil etsin.

Məqsəd həmin icmada mina təhlükəsi riskinin azaldılması üçün daima Azərbaycan Qızıl Aypara Cəmiyyətinin könüllüləri tərəfindən informasiya xarakterli məlumatların və biliklərin verilməsidir. Konkret olaraq zərər çəkən icma üzvləri ilə belə risklərin azaldılması zəmnində, risklərin aradan qaldırlmasında alternativ çıxış Bu Məqsəd həmin icmada mina təhlükəsi riskinin azaldılması üçün daima Azərbaycan Qızıl Aypara Cəmiyyətinin könüllüləri tərəfindən informasiya xarakterli məlumatların və biliklərin verilməsidir. Konkret olaraq zərər çəkən icma üzvləri ilə belə risklərin azaldılması zəmnində, risklərin aradan qaldırlmasında alternativ çıxış yollarının tapılması üçün işlərin aparılmasıdır.

Bu kəndlərin (icmaların) seçilməsində Mina təmizlənməsi üzrə Azərbaycan Milli Agentliyi (ANAMA) və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin sözü gedən rayonlarda fəaliyyət göstərən Rayon Komitələrinin nümayəndələri ilə məsləhətləşmələr aparılmışdır. Nəticədə bu il üçün mina və partlamamış hərbi sursatlar (PHS) zamanı son vaxtlar ərzində baş verən hadisələrə görə daha

çox təhlükəli sayılan *Ağdam, Tərtər, Füzuli, Ağcabədi, Xanlar, Qazax, Goranboy və Tovuz* rayonlarından ümümilikdə, 15 kənd seçilmişdir. Bu kəndlərdə Qızıl Ayparanın «Gənclər Komitəsi» uşaqların oyun üçün seçdikləri təhlükəli yerlərə alternativ olaraq «Təhlükəsiz oyun meydançaları» salmışdır.

## HUMANİTAR YARDIM

2005-ci ildə tənha qocalara, ahıl-xəstələrə, təbii fəlakətlərdən zərər çəkmiş əhaliyə və digər kateqoriyalardan olan az təminatlı insanlara müxtəlif maliyyə mənbələri hesabına 551 569.354 Azərbaycan Manatı (119.906 ABŞ dolları) məbləğində aşağıdakı humanitar yardımlar göstərilmişdir:

| Humanitar yardımın mənbəyi | Humanitar yardımın növü | Əhalinin kateqoriyaları | Yardım göstərilən insanların sayı | Məbləğ (Az. manatla) |
|---|---|---|---|---|
| İanə qutularından | Ərzaq, paltar, dərman, məişət avadanlıqları | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr | 1 803 | 30 958.000 |
| Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası | Məişət avadanlıqları, yataq dəstləri, gigenik dəstlər, mətbəx ləvazimatları | Fövqəladə hallar zamanı zərər çəkmiş insanlar | 506 | 191 379.934 |
| Qızıl Ayparanın Rayon Komitələrinin üzvlük haqqı və müxtəlif mənbələrdən daxil olan yardımlar hesabına | Ərzaq, dərman, məktəbli ləvazimatları, məişət avadanlıqları, yataq dəstləri | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr, qaçqın və məcburi köçkünlər | 36 150 | 329 231.420 |
| | | Cəmi: | 38 459 | 551 569.354 |

# AXTARIŞ XİDMƏTİ

Axtarış Xidməti bir-birindən ayrı düşmüş ailə üzvlərinin əzab və iztirablarının azaltmaq, psixoloji köməklik göstərmək, fövqəladə hallar zamanı və ondan sonra əldə edilən lazımi məlumatları ailə üzvləri arasında mübadilə etmək və həmçinin, bir-birinə qovuşdurmaq məqsədi daşıyır.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Axtarış Xidmətinin birgə əməkdaşlıq etdiyi əsas dövlət strukturları ilə 2005-ci ildə də əməkdaşlıq davam etdirilmişdir. Onlardan: Daxili İşlər, Milli Təhlükəsizlik Nazirlikləri, Nazirlər Kabineti nəzdində Dövlət Arxivi İdarəsi.

**2005-ci ilə dair statistik məlumatlar:**

İl ərzində Axtarış Xidmətinə 350 sorğu daxil olunub.
189 axtarış işi bağlanılıb (onlardan 70 müsbət , 119 mənfi)

Hər ayın axırında Qızıl Ayparanın Qərargahında gənclər və könüllülər üçün Axtarış üzrə modul-treyninq keçirilmişdir. Həmçinin, həmin treninqlərdə Cəmiyyətin Qərargahının əməkdaşları da iştirak etmişlər. İl ərzində bu seminarlarda 79 könüllü iştirak etmişdir.

İl ərzində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 7 Regional mərkəzində nəzəri seminarlar keçirilmişdir. Seminarlarda Axtarış Xidmətinin və Fövqəlada Hallar İdarəsinin işçiləri, Regional Mərkəzlərini rəhbərləri və könüllüləri iştirak etmişlər. İl ərzində keçirilmiş seminarlarda cəmi 111 könüllü iştirak etmişdir.

1000 ədəd sorğu blankları sifariş edilmiş və hazırlanmışdır. Blanklarda əvvəl istifadə edilən qara rəng əvəzinə, emblemdə qırmızı rəngdə aypara əks edilib. Blankların yayımı Regional Mərkəzlər tərəfindən bütün yerli komitələrinə paylanılmışdır.

## MOBİL TEXNİKİ DƏSTƏLƏR

Hollandiya və Norveç Qızıl Xaç Cəmiyyətləri tərəfindən dəstəklənən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin «Mobil Texniki Dəstələr» layihəsinin əsas məqsədi ucqar dağlıq kənd yerlərində yaşayan zavallı insanların evlərində kiçik təmir işləri (sıradan çıxmış qapı, pəncərə, döşəmə, tavan və ya çəpərin dəyişdirilməsi, elektrik işləri və s.) aparmaqla onların sağlamlığı üçün ciddi təhlükə yarada biləcək halların qarşısının alınması, həmçinin, onların maddi və mənəvi dəstək almalarına nail olmaqdır.

2005-ci ildə Qızıl Ayparanın Goranboy və Naxçıvanda fəaliyyət göstərən 2 mobil texniki dəstəsi ümumilikdə, 420 evdə kommunal xidmət işləri aparmışlar: 275 ev Gəncənin Bərdə və Tərtər rayonlarında, 145 ev isə Naxçıvan Muxtar Respublikasının Ordubad, Culfa, Şahbuz və Kəngərli rayonlarda. Benefisiarlardan 314 nəfəri tənha kimsəsiz qocalar olmuş, digər 106 isə ailə başçısını itirmiş çox uşaqlı ailələr olmuşdur. Bunlardan əlavə, 186 ailənin evində sosial xidmət işləri aparılmışdır (həyatyani sahənin, evin təmizlənməsi, yanacaq odunun doğranması, masa, oturacaq kürsükün kreslonun və təmiri və s.).

Təmir işlərində tikinti materiallarının evlərə daşınmasında, evlərin qapı və pəncərələrinin boyanmasında, evin, həmçinin, həyatyanı sahələrin təmizlənməsində, doğranmış yanacaq odunun yığılaraq bir yerə səliqə ilə yerləşdirilməsində və digər xidməti işlərdə 254 nəfər könüllü iştirak etmişdir.

## *MALİYYƏ HESABATI*

### Gəlirlər

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 2005-ci ildəki gəlirləri 4393,0 mln.manat təşkil etmişdir.

Əvvəlki illərdə olduğu kimi, alınan gəlirlərin çox hissəsi, 3106,7 mln.manat və yaxud 70,7% xarici donorların maliyyə dəstəyindən və Dövlət büdcəsindən alınan vəsaitdən ibarətdir. Qalan 1286,3 mln.manat və yaxud 29,3% yerli gəlirlərdən və üzvülük haqlardan ibarətdir.

2005-ci ildə Qızıl Ayparanın gəlirlərinin tərkibi aşağıda göstərildiyi kimi olmuşdur:

1. 2141,8 mln.manat və yaxud umumi gəlirlərin 48,8%-i Beynəlxalq Federasiyanın;
2. 281,8 mln.manat və yaxud umumi gəlirlərin 6,4%-i Beynəlxalq Qırmızı Xaç Komitəsinin;
3. 348,9 mln.manat və yaxud 7,9%-i ikitərəfli əməkdaşlıq əsasında xarici donorların (Norveç və Hollandiya Qızıl Xaç Cəmiyyətlərindən)
4. 334,2 mln.manat və yaxud 7,6%-i dövlət büdcə vəsaitindən;
5. 1123,4 mln.manat və yaxud 25,6%-i üzvlük haqlarından;

6. 25,8 mln.manat və yaxud 0,6%-i gəlir gətirmə sahələrindən;
7. 113,7 mln.manat və yaxud 2,6%-i ianə qutularından, təşkilatlar və ayrı-ayrı imkanlı şəxslərin ianələrindən;
8. 23,4 mln.manat və yaxud 0,5%-i sair gəlirlərdən ibarətdir.

## Xərclər :

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 2005-ci ildəki xərcləri 4360,5 mln.manat olmuşdur.

2005-ci ildə Qızıl Ayparanın humanitar fəaliyyətlərinə xərclərin tərkibi aşağıda göstərildiyi kimi olmuşdur:

1. Beynəlxalq Federasiyanın maliyyə dəstəyi ilə yerinə yetirən məqsədli proqramlar üzrə 2141,8 mln.manat və yaxud umumi xərclərin 49,1%-i;
2. Beynəlxalq Qırmızı Xaç Komitəsinin maliyyə yardımı ilə yerinə yetirilən tədbirlərin maliyyəşdirilməsinə 281,8 mln.manat və yaxud umumi xərclərin 6,5%-i;
3. Az.QAC hesabına humanitar yardımlara 360,1 mln.manat və yaxud umumi xərclərin 8,2%-i;
4. İkitərəfli əməkdaşlıq əsasında xarici donorların vəsaiti hesabına yerinə yetirilnən məqsədli proqramlara 348,9 mln.manat və yaxud umumi xərclərin 8,0%-i.

**Ümumi**: 3132,6 mln.manat və yaxud umumi xərclərin 71,8%-i.

Digər xərclər:

1. Beynəlxalq Federasiyaya ödənilən üzvlük haqqı, Milli Cəmiyyətin inzibati və s. xərcləri (dövlət büdcəsi hesabına) – 334,2 mln.manat və yaxud umumi xərclərin 7,7%-i;
2. Respublika üzrə təsərrüfat xərclərin və əmək haqqına 623,9 mln.manat və yaxud umumi xərclərin 14,3%-i;
3. Digər xərclərə 269,8 mln.manat və yaxud umumi xərclərin 6,2%-i.

**Ümumi**: 1227,9 mln.manat və yaxud umumi xərclərin 28,2%-i.

1 ABŞ dolları – 4592 Azərbaycan manatı (AzM)

1 Avro – 5453.69 AzM

# Gəlirlər (mln manat)




# Xərclər (mln manat)

